# Ağsaqqal örnəyi

**…Deyirlər ki, məşhur yunan filosofu Diogen günün-günorta çağı əlində çıraq şəhər küçələrində nə isə axtarırmış. Ondan günəş işığı ola-ola çırağın şöləsinə də ehtiyac duyub nə aradığını soruşduqda cavabı qısa olur: - İNSAN axtarıram!**
**Miladdan öncə IV yüzillikdə baş vermiş və artıq 25 əsrdir ki, saysız-hesabsız kitablarda xatırlanan, yaddaşlarda çözələnən bu hadisənin bütün dövrlər üçün əbədi aktuallıq kəsb etməsinin səbəbi şübhəsiz ki, bəşəriyyətin daim ƏSL İNSAN sarıdan qıtlıq çəkməsidir. Həmişə sosial mahiyyətli çatışmazlıqları qabardan toplumların tədricən, zamanın axarında bu böhrandan qurtulmaları qaçılmaz olub. Lakin bilavasitə mənəvi aşınmanın nəticəsi olaraq meydana çıxan və yaxşılara, mərdlərə tamarzı qalan cəmiyyətlərdə yaranan əsl insan qıtlığının ağrısı və fəsadları isə uzun müddətli, özü də çox məşəqqətli keçib. "Dünya yaxşı insanların çiynində duruş gətirib" - deyimini də məhz bu konteksdə qəbul etsək, onda "insan" sözünün mahiyyətində dayanan ülvi dəyərlərin əsl məğzini də özlüyümüzdə yəqinləşdirmiş olarıq.**



**Bu gün bu təzadlı dünyaya öz ləyaqəti ilə dirək verən yaxşı insanlardan, kişilərdən biri - bütün rəsmi statuslarının xatırlanmasına ehtiyac duyulmadan, sadəcə adı və soyadı ilə çağırılmaqla özü barədə tam təsəvvür formalaşdıran Fəttah Heydərovun fədakar ömrünün şərəf salnaməsi barədə ürək sözlərimizi bölüşmək istərdik.**

Məmur xisləti ilə ziyalı missiyasını, ali vətəndaş mövqeyi ilə ağsaqqal dəyanətini, azərbaycanlı mahiyyətini ümumbəşəri dəyərlərlə birləşdirmək hər kəsə xas keyfiyyət deyil. Bu vəhdət alındıqda isə həmin şəxs haqlı olaraq, hörmət qazanır, etimad, inam ünvanına çevrilir. Bu mənəvi ucalıq "əsl insan" formulunun bütün elementləri ilə əhatə olunduqda isə ehtiram daha geniş miqyas alır və həmin insan yüzilliklər boyu formalaşmış ləyaqətli Azərbaycan kişisi obrazının daşıyıcısına çevrilir. Mübaliğəsiz olaraq bu fikirlər Fəttah Heydərova da aid edilir.

Fəttah müəllimin geniş təqdimata ehtiyacı yoxdur. Bu insanın həyatının geridə qalan 70 ili peşəkarlıq və məsuliyyət, şərəf və vicdan, xalqa xidmət və dövlətə sədaqət kimi ali dəyərlərin qovuşuğunu əks etdirir. Çalışdığı müxtəlif vəzifələrdə daim əhalinin və rəhbərliyin etimadını yüksək səviyyədə doğrultmağı müqabilində daha ali etimadlarla mükafatlandırılıb. Bakı Dövlət Universitetini, eləcə də Dövlət İdarəçilik Akademiyasını (o zamankı Ali Partiya Məktəbi) bitirərək, Naxçıvan Vilayət Partiya Komitəsində təlimatçılıqdan başlayan ömür yolu Ordubad və Culfa kimi böyük rayonlara birinci katib, muxtar respublikanın əhaliyə məişət xidməti və mədəniyyət naziri vəzifələrinə qədər uzanıb. Çoxsaylı təltiflərin müqabilində Qəbələdən üç çağırış deputat seçilməsini də xalqı tərəfindən aldığı ən böyük mükafat kimi qəbul edir. Ancaq Fəttah Heydərovun xarakterik məziyyətlərindən danışarkən onu yaxından tanıyanlar daha çox bu xüsusiyyətlərini qabardırlar: "Fəttah müəllim əsl dost, sadiq insan, sözü bütöv kişidir!". Bu fikirləri təsdiq etmək üçün (baxmayaraq ki, görünən dağa nə bələdçi?!) istənilən qədər faktları misal gətirmək olar. Lakin bu faktlar silsiləsində Fəttah Heydərovun 1990-cı ildən sonrakı ictimai missiyasında nümayiş etdirdiyi ləyaqət və ali mənəvi keyfiyyətlər daha qabarıq təzahür edir, onun Azərbaycan vətəndaşının nəzərindəki təsəvvürünü tam dolğunlaşdırır. Bu missiya isə milli iftixarımız Heydər Əliyevlə sıx bağlı olaraq, Fəttah müəllimin mənəvi dünyasını açıqlayır. Ulu öndərimiz dost sandıqlarının xəyanəti, etimad göstərdiklərinin məkri ilə üzləşəndə daim onun yanında olan, mənəvi dəstəyini əsirgəməyən, həmin illərdə Heydər Əliyevin dost sınağından üzüağ çıxan azsaylı kişilərdən biri də Fəttah Heydərov oldu.

*"90-cı illərin əvvəllərində hər kəsin borcu idi ki, Heydər Əliyevin yanında olsun, ona mənəvi dəstək bildirsin. Mən isə daim özümü Heydər Əliyevə borclu saymışam. Heydər Əliyevin kadrı, siyasi məktəbinin yetirməsi kimi öz liderimin yanında olmalı, vətəndaşlıq borcumu verməliydim. Rəhbərimizin dövlət və millət qarşısında xidmətlərinin əvəzini isə heç birimiz hələ ödəyə bilməmişik. Heydər Əliyevə heç kəs kömək etməyib, bu dahi şəxsiyyət nəyə nail olubsa, yalnız öz qətiyyətinə və fədakarlığına, ən əsası isə xalqının dəstəyinə güvənib. Heydər Əliyevin yanında olmaq isə həmin şəxsə böyük qürur və şərəf gətirən amil olub"* - həmin illərdəki böyük mənəvi dəstəyini Fəttah Heydərov təvazökarlıq göstərərək bu kiçik cümlələrə sığışdırmaq istəyir. Fəqət ən azından Heydər Əliyevin bu kişiyə bəslədiyi ehtiramın və inamının miqyası ilə biz Fəttah müəllimin insani keyfiyyətlərinin dəyərini müəyyənləşdirə bilərik…

❖❖❖

Sərt, kəskin iqlimdə doğulub boya-başa çatan insanların da xarakterinin sərt, prinsipial, birmənalı olması çoxsaylı elmi araşdırmaların ortaya qoyduğu nəticələrdəndir. Azərbaycanın tək strateji yox, həm də siyasi-intellektual mərkəzi sayılan Naxçıvanın yetirdiyi dühaların hər kəsə örnək olan fərdi keyfiyyətlərinin formalaşmasında isə şübhəsiz ki, bu əsrarəngiz bölgənin ecazkar iqlimi ilə yanaşı, minilliklərin sınağından çıxan yüksək mədəni irsi, əqli kamilllik potensialı, siyasi əzmkarlıq nümunələri, dövlətçilik ənənələri, ləyaqət mücəssəmələri də mühüm rol oynamışdır. Hələ 900 il öncə sırf Azərbaycançılıq ideologiyası əsasında qurulan Atabəylər dövləti, həmçinin Asiyanı diz üstə çökdürüb, yalnız Əlincədə öz cahangirlik əzəmətinə haqlı olaraq şübhə edən Əmir Teymura göstərilən kişilik direnişi, milli-mədəni memarlıq irsinin intibah müəllifi olan Əcəminin dünyaya yayılan şöhrəti, Azərbaycan ziyalılığının baş tacı olan Mirzə Cəlilin möhtəşəmliyi, ən nəhayət, xalqımızın əsrlər boyu ən müqəddəs arzularından olan azad və müstəqil dövlətdə yaşamaq haqqını təsbit edən Heydər Əliyevin indi dünyanın ən böyük azərbaycanlısı kimi qəbul edilməsi kiçik əyalətin - Naxçıvanın böyük Azərbaycana bəxş etdiyi misilsiz şərəf və baş ucalığıdır.

Fəttah Heydərov qeyd etdiyimiz keyfiyyətləri öz şəxsində ümumiləşdirmək iqtidarında olan azsaylı kişilərdəndir. Öz mövqeyində haqlı olduğunu görəndə opponent qüvvələrin qan qoxuduğundan belə qorxmadan sözündən və əməlindən çəkinməmək, dövlətçilik məramını daim şəxsi maraqlardan üstün tutmaq, yüksək ziyalılıq dəyərlərinin daşıyıcısı olmaq, milli-mənəvi irsə layiqincə bağlılıq - budur Fəttah müəllimin bir fərd olaraq malik olduğu xarakterik cizgilər! Fəttah Heydərovun daim gülər və mehriban siması, mərhəmətli niyyətləri, xeyirxah əməlləri, bənzərsiz alicənablığı nə qədər sadə və həlimdirsə, onun mübarizliyi, bu yolda nümayiş etdirdiyi rəşadət, barışmazlıq bir o qədər sərt və kəskindir. Bu gün ATƏT-in Parlament Assambleyasının üzvü kimi erməni işğalına qarşı bu vacib tribunadan olduqca qətiyyətli mövqedən səsləndirdiyi bəyanatlarla dövlətə, millətə xidmətinin bir təzahürünü nümayiş etdirən Fəttah müəllimin prinsipiallığı yalnız dövlətçilik mənafeyini əks etdirmir, bu, həm də şəxsi münasibətlərində də daim özünü aşkar büruzə verib. Bu insan 1990-cı ildə partiya nomenklaturasının yüksək çinli məmurlarından olaraq, Qorbaçov səviyyəsində verilmiş "Heydər Əliyev məhv edilməlidir, onunla birlikdə olanlara da rəhm olunmamalıdır" - əmrinə əməl etməyə digər həmkarları kimi rəsmi statusuna görə məsuliyyət daşısa da, yenə də hamı kimi olmadı, hamıdan fərqləndi. Nəinki Bakı DTK-sının, hətta Moskva "KQB"-in və "QRU"-un yüzlərlə əməliyyatçısının nəzarətində olan Heydər Əliyevin Naxçıvandakı evinə Fəttah Heydərov hər gün heç kəsdən çəkinmədən xidməti avtomoboli ilə gedirdi, ehtiram göstərdiyi, lider tək qəbul etdiyi şəxsiyyətə layiqli münasibətini gizlətmirdi. Ona edilən şəxsi təhdidlər rəsmi ittihamlara çevriləndə də Fəttah müəllim prinsipiallığından bir addım belə geri çəkilmədi - daim Heydər Əliyevin yanında oldu, ona mənəvi dəstək göstərməyi o dövr üçün özünün, ümumiyyətlə, bütün Heydərovların həyat amalına çevirdi və bu sədaqətə 16 ildir ki bağlıdır!

Heydər Əliyev öz həyatında xəyanətlər silsiləsinə alışmışdı və bunu bütün rəhbərlərin tale qisməti kimi qəbul edirdi. O, daim hansısa etimad göstərdiyi şəxsin sabah ona qarşı gizli, məkrli niyyətlərə düşəcəyinə, adam edib çörək verdiklərinin harınlayaraq cızıqlarından çıxacağına da hazır idi. Lakin Heydər Əliyevə güctəpər verən amil məhz sadə vətəndaşlarının ona olan sonsuz inam və ehtiramı, eləcə də yaxın ətrafının sınaqdan alnıaçıq çıxan üzvlərinin göstərdikləri böyük sədaqət idi. 1993-cü ildən üzübəri çox məmurun Heydər Əliyev ideyalarına sonadək sadiq qalmamaları, siyasətin geçməkeşli dolanbaclarında büdrəmələri, Heydər Əliyevin yanında dayanmaq şərəfini qiymətləndirmədən müxalifətin səviyyəsi(zliyi)nə düşmələri günümüzün və tariximizin ən acı gerçəkliklərindən olmuşdur. Lakin bütün bu sınaqlarda sonadək sədaqət və prinsipiallıq göstərən, heç bir alternativ yola sapınmağı ağıllarına belə gətirməyən, siyasi nankorlara və müstəqilliymizin qənimlərinə qarşı mübariz olan insanların sırasında Fəttah müəllimin və onun ocağından çıxan şəxslərin adı həmişə birincilər cərgəsində olub! Unutmayaq ki, Heydər Əliyevi müdafiə etmək, onun siyasi irsinə bağlı olmaq həm də dövlətçiliyin dəstəklənməsinə və Azərbaycana layiqli xidmətə ən bariz nümunədir!..

❖❖❖

Fəttah Heydərovun mənəvi dünyasının əsas qayəsi imanla, inancla yoğrulub. Tanrı buyruqlarına, Peyğəmbər nəsihətlərinə, Qurani-Şərifin hikmətlərinə ruhu və cismani varlığı ilə tapınan bu insanın əməllərində də ilahi etiqadla tam uyğunluq var. Körpə vaxtlarından Əshabi-Kəfin (Naxçıvanda yerləşən və İslam dünyasında böyük ehtiramla yad edilən bu mağaranın adı Qurani-Şərifdə üç dəfə çəkilib) ecazkar cazibəsinə vurulan, yeniyetməlik çağlarında Nuhun gəmisinin xilas olduğu zirvələrin əhatəsində Tanrının mövcudluğunu əqlinin və qəlbinin harmoniyası ilə qavrayan, sonralar rəhbər vəzifələrdə işləyəndə (raykom katibi, nazir) anbar və digər obyektlər kimi işlədilən məscidləri Sovet ateizminin tələblərinə rəğmən xalqa qaytaran Fəttah Heydərov ömrünün müdriklik dönəmində də hər kəsə örnək olan etiqad yaşamı sürür.

Müqəddəs Kəbə evinə və Peyğəmbər əfəndimizin mübarək məzari-məkanına ziyarətlərinin sayı artıq 10-a çatan Hacı Fəttahın Tanrı sevgisi də populizmdən, kütləvilikdən uzaqdır. Onun inanc məsləkində ilk məram məhz cahillikdən uzaq, kamilliyin daşıyıcısı olan İslamı təbliğ və təşviq etməkdir. Əsl mömin insan kimi ölkəmizdə yeni məscidlərin tikintisinə və bərpasına himayədarlıq edən, bu işə başqa xeyirxah insanları da cəlb edən ağsaqqal dini maariflənməyə də böyük önəm verir. Ancaq o da Hacı Fəttahın böyüklük göstəricisidir ki, *"Allahın evini tikmək bir savabdırsa, Allahın ən böyük buyruqlarından olan elm məbədlərini, məktəbləri inşa etdirmək ikiqat savabdır"* - deyir və dediyinə əməl də edir.

Ümumiyyətlə, maarifçilik, elm, təhsil məsələləri Fəttah Heydərovun həyat yolunda daim əsas istinadgahlardan olub. Yunan, Roma filosoflarından Şərq müdriklərinə qədər yüzlərcə insanın düşüncə məhsullarını, nəsihətlərini bu gün də gənclərə çatdıran, Puşkindən Molla Pənah Vaqifədək, Ömər Haldundan Mirzə Cəlilə qədər neçə-neçə yaradıcılıq dühasının sənət bəhrələrini öz hafizəsində yaşadan Fəttah müəllim şübhəsiz ki, bu bilgilərini son vaxtlarda almayıb. O, özünü qavrayandan, şüur və təfəkkürü ilə düşünməyə başlayandan öyrənib və öyrənməyini bu gün də davam etdirir. Bir məqama da nəzər salaq ki, Fəttah Heydərovun ömrünün 15 il öncəyə qədərki dövrü sırf təsərrüfat işlərində keçib. Plana nəzarəti yoxlamaq üçün bir gün ərzində bir neçə dəfə İran sərhədində yerləşən kolxozlardan Ermənistanla həmsərhəd kəndin sovxozuna tələsən, dağlardakı çoban obalarına at belində qalxan, gecədən sübhədək nomenklatur müşavirələri keçirməyə məcbur olan, ən ucqar kəndlərdə mədəniyyət və maarifçilik obyektlərinin tikintisini sürətləndirmək, fəhlələri həvəsləndirmək üçün çox vaxt özü də onlarla birgə palçıq qatan, bir sözlə, rəhbər postun səfasını cəfalarda qurban verən Fəttah Heydərovun *"işdən imkan tapan kimi, ilk növbədə mütaliə edirdim"* - fikrinin doğruluğuna tam əminik!

Əslində, əsl ziyalı ömrü elə belə də yaşanır - qaça-qaçda, qovhaqovda, cəfalarda, ancaq maarifçiliyin, elmin, kamilliyin işığında!

❖❖❖

Fəttah Heydərov bu gün də ölkənin ictimai-siyasi həyatının ön mövqelərindədir. Ötən iki çağırışda parlamentin Hüquq siyasəti və dövlət quruculuğu daimi komissiyasının üzvü, sonuncu çağırışda isə Regional məsələlər daimi komissiyasının sədr müavini seçilən Fəttah Heydərov millət vəkili fəaliyyətində həmişə dövlətin və xalqın maraqları kimi təməl prinsiplərə istinad edib, qanunverici bazanın təkmilləşməsində və onun beynəlxalq standartlara uyğunlaşdırılmasında fəallığı ilə seçilib. İnsan hüquq və azadlıqlarına, demokratik cəmiyyət quruculuğuna, xüsusən də sosial məsələlərə aid qanun layihələrinin müzakirəsində daim Azərbaycan vətəndaşlarının mənafeyi baxımından çıxış etmiş, çoxsaylı təkliflər vermişdir. Parlamentin İntizam komissiyasının üzvü kimi Milli Məclisdə normal iş rejiminin qorunması, daxili nizam-intizamın saxlanılması, etik davranışların təmini istiqamətində öz nüfuzu hesabına mühüm işlər görmüşdür.

Fəttah Heydərovun deputatlıq fəaliyyətində parlamentlərarası münasibətlər və beynəlxalq əlaqələr sahəsi xüsusilə fərqlənir. ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü kimi xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesində dövlətimizin diplomatik və informativ cəbhədə apardığı uğurlu siyasətin fəal iştirakçısıdır. Millət vəkili dünyanın bir çox dövlətlərinə etdiyi rəsmi səfərlər zamanı həm qanunverici orqanlar arasında əməkdaşlığın möhkəmlənməsinə töhfələr vermiş, həm də Azərbaycanın haqq səsinin beynəlxalq aləmə yayılması, informasiya blokadasının yarılması, bəşəriyyət qarşısında erməni təcavüzünün ifşası yönümündə çalışmışdır.

Fəttah Heydərovun millət vəkili kimi fəaliyyətində ən əsas məqam isə onun seçiciləri ilə yaratdığı sıx ünsiyyət və Qəbələ sakinlərinin daim ona güvənc, inam yeri kimi yanaşmalarına nail olmasıdır. Azərbaycanın bu qədim diyarını üç çağırış Milli Məclisdə layiqincə təmsil edən deputat ötən illərdə seçiciləri ilə keçirdiyi çoxsaylı görüşdə, apardığı qəbullarda Qəbələ camaatını narahat edən problemləri öyrənmiş, onların həllinə, çətinliklərin aradan qaldırılmasına yardım göstərmişdir. Son 13 il ərzində Qəbələ əhalisinin istəklərinin ifadəçisi olan Fəttah Heydərovun təşəbbüsü və birbaşa iştirakı ilə əhalinin yaşam və məşğulluq ehtiyaclarını ödəmək məqsədilə rayonda çoxsaylı sosial infrastrukturlar, ictimai obyektlər, körpülər istifadəyə verilmiş, dövlətə və vətəndaşlara məxsus binaların, məktəblərin, səhiyyə ocaqlarının əsaslı təmiri, həmçinin yolların asfaltlanması, su kəmərlərinin çəkilməsi kimi savab işlər həyata keçirilmişdir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev Qəbələyə son səfərində ictimaiyyətlə görüşündə rayondakı quruculuq-abadlıq işlərini yüksək qiymətləndirmiş və bildirmişdir ki, **"sizi Milli Məclisdə təmsil edən deputat da bu işdə çox fəal iştirak edir və öz töhfəsini verir".**

Siyasi mövqeyini *"Heydər Əliyevin mükəmməl dövlətçilik irsi əsasında Azərbaycanı inkişaf etdirən, əldə olunan nailiyyətlərin miqyasını genişləndirən siyasi kursu dəstəkləmək, Prezident İlham Əliyevin uğurlu fəaliyyətinə töhfə vermək!"* - prinsipinə çevirən Fəttah Heydərovun vətəndaş məramı da aydın və konkretdir: *"Böyük qurbanlar bahasına qazanılan müstəqilliyin daimiliyini təmin etmək üçün və dövlətin, xalqın mənafeyini qorumaq naminə fədakarlıqla, böyük səylə çalışmaq, vətəndaşlara arxa, dayaq olmaq, Azərbaycanın adını daim yüksəltmək!"* Bu məramlar heç də kağız üzərində yazılan bəlağətli ifadələr deyil, onlar Fəttah Heydərovun ömür yolunda, əxlaq və mənəviyyatında parlaq nəticələrlə əks olunan ali niyyətlər, real əməllərdir!

*Yaşanan mənalı ömrü müdriklər uzun ömür kimi dəyərləndirirlər. Yəni əsl uzun ömür heç də zamanla əlaqələnmir, bu, yaxşı insanların, mərd kişilərin savab əməlləri, xeyirxahlıqları, vətənə və millətə böyük xidmətləri ilə bağlı olur. Bu baxımdan, Hacı Fəttah Heydərovun hədər həyat yaşamadığını, uzun və mənalı ömür sürdüyünü tam əsasla demək olar. Əslində, 70 yaş nədir ki?.. Ancaq ömrün 70-ci pilləsinə Fəttah Heydərov zirvəsindən baxanda bu həyat olduqca məzmunlu, layiqli, örnək nümunə kimi görünür. Uzun ömür yaşayan kişilərin çiynində dayanan dünyamızın yaxşı insanlardan xali olmaması isə indi ən böyük təskinliyimizdir, Fəttah müəllim!..*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

## Əliağa Kürçaylı - 80

*XX əsr Azərbaycan poeziyasında özünəməxsus yeri olan əməkdar incəsənət xadimi, dövlət mükafatı laureatı, görkəmli şair, dramaturq və publisist Əliağa Kürçaylı çoxcəhətli yaradıcılığı ilə "şeirimizin ən uca və barlı-bəhərli budaqlarından" (Rəsul Rza) biri idi. Yaşadığı 52 il ərzində çox məhsuldar işləmiş, şeirə, sənətə ciddi münasibət bəsləyərək məhz poetik nümunələrə, əsl ədəbi əsərlərə imza atmışdı. Əliağa Kürçaylı elə bir dövrdə bədii yaradıcılığa başlamışdı ki, ədəbi mühitdə Mehdi Hüseyn, Qulu Xəlilov, Yaşar Qarayev kimi sərt tənqidçilərlə bərabər məşhur şairlər ordusu var idi. Lakin yaradıcılıq dünyasına dərindən bələdçilik, anadangəlmə istedad, geniş dünyagörüş, daim öz üzərində işləmək Əliağa Kürçaylını çoxundan fərqləndirə bildi. Tənqidçilər indi də onun haqqında məhəbbətlə yazırlar ki, Əliağa Kürçaylı bir şair kimi dünənin, bu günün deyil, sabahın da ən böyük şairlərindən biri olaraq daima yaşayacaqdır.*

# "Dönüb getdi Kür üstünə"



Əliağa Vəliyev (Kürçaylı onun ədəbi təxəllüsü idi) 1928-ci ilin fevralında Salyan rayonunun Kürqaraqaşlı kəndində dünyaya gəlmişdi. Sonralar doğma ocaqla bağlı bir sıra maraqlı şeirlər yazan Əliağa Kürçaylı "Kəndimiz haqqında düşüncələr" şeirində öz hisslərini belə qələmə almışdı:

*Mənə elə gəlir bütün dünyanın*
*Yolları bu kənddən başlanıb gedir.*
*Torpağa bağlansın sənin ad-sanın,*
*Torpaqsız, əcdadsız bir insan nədir?!*
*Əyil, öp bu yeri, baba yurdunu,*
*Əyilsən o səni qaldırar, oğul!*

İkinci Dünya müharibəsinin ağır izləri onun da taleyindən keçməli olub. Şairin ilk qələm təcrübələri də məhz həmin dövrə təsadüf edir. Hələ orta məktəbdə oxuduğu illərdə arxa cəbhədə çalışan insanların ağır həyatı, vahiməli günləri, yaşayış tərzinin çətinliyi və bir sıra təzadların mövcudluğu onun uşaq qəlbində dərin yaralar salmışdı. Şair yazdığı xatirələrində belə deyirdi: "Qarşılaşdığım çətinliklərdən, sarsıntılardan doğan ilk şeirlərim qələmsiz, kağızsız qəlbimə həkk olunurdu". Məhrumiyyət və ehtiyac üzündən orta məktəbi bitirməmiş dəmiryol idarəsində işləməyə məcbur olmuş gənc Əliağa sonralar Bakı Dəmir Yolu Texnikumunda təhsil almışdı. Bir müddət Salyan Dram Teatrında mühasib vəzifəsində çalışmışdı.

İlk şeiri 1946-cı ildə "Azərbaycan gəncləri" qəzetində dərc edilmişdi. "Sənin gözlərin" adlanan bu şeirin qədəmi sayalı olub. Azərbaycan Sovet Yazıçılar İttifaqının sədri Səməd Vurğunun yazdığı məktuba əsasən Əliağa Kürçaylını 1947-ci ildə gənc yazıçıların birinci respublika müşavirəsinə dəvət edirlər. Bu hadisə gənc şairin həyat və sənət yolunun istiqamətini dəqiq müəyyənləşdirir.

Əliağa Kürçaylının "Səməd Vurğun taleyimizdə" adlı yazısından görünür ki, Səməd Vurğun ədəbi gəncliyin böyük xeyirxahı, müdrik hamisi olub. Təkcə Əliağa Kürçaylının deyil, o dövrün bir sıra şairlərinin ilk şeirlər kitabının nəşr olunmasında, Yazıçılar İttifaqına üzv qəbul edilməsində, Bakıda yataqxana və mənzillə təminatında Səməd Vurğunun əvəzsiz xidməti var idi. Əliağa Kürçaylı özünü xoşbəxt şairlərdən hesab edirdi ki, o, həyatda da, sənətdə də Səməd Vurğunun qayğısını görmüşdü. Sonralar Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olan Əliağa Kürçaylı Səməd Vurğunun yaxından köməyi ilə Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda da təhsil alıb.

Əliağa Kürçaylının kitabları müntəzəm işıq üzü görürdü, mətbuatda müxtəlif yazılarla çıxış edirdi. "Kommunist", "Ədəbiyyat və incəsənət" qəzetlərində, "Azərbaycan", "Literaturnu Azerbaydjan" jurnallarında müxtəlif vəzifələrdə çalışan Əliağa Kürçaylı Azərbaycan Dövlət Nəşriyyatında redaktor olmuş, Yazıçılar İttifaqında Dramaturgiya bölməsinə rəhbərlik etmişdi. O, 1978-ci ildən ömrünün sonuna kimi "Yazıçı" nəşriyyatında baş redaktor vəzifəsində çalışmışdı.

Əliağa Kürçaylı "Arifin bacısı", "Gözəllik", "Cavabsız məktublar", "Durnalar cənuba uçur", "Yollarda axtar məni", "Dünya ovcumdadır", "Bütövlük", "Ülkər" (ölümündən sonra nəşr olunub) adlı kitabların müəllifidir.

Onun şeirlərini oxuyanda dövrün, zamanın tələbindən doğan nümunələrə də rast gəlirsən. Bu, təbiidir. Sovet dövründə yaşayıb-yaradan şairlərin çoxu quruluşun diktəsindən kənar düşə bilməyib. Buna görə onları qınamaq, ittihama çəkmək də düz deyil. Əsas odur ki, Əliağa Kürçaylı kimi şairlər nə yazırdılarsa, gözəl, oxunaqlı alınırdı. Əliağa Kürçaylı həmişə şeirə, sənətə, poeziyaya məsuliyyətlə və ciddi yanaşırdı. Tərifi sevməzdi. Çox təvazökar insan idi. Qələm dostları danışırlar ki, Əliağa Kürçaylı bir fikri tez-tez işlədərmiş: "Hökmən ən yaxşı şeirimi yazacağam". Şeirə münasibəti aydın idi. Poeziyanı taleyi sanırdı. Yaradıcılığının yetkin çağında belə yazırdı:

*Bir quru adınla könlüm sevindi,*
*Nə çörək olmusan, nə şöhrət mənə.*
*Başqa bir peşəni seçsəydim indi,*
*Bəlkə qismətim idi var-dövlət mənə.*

Bütün bunlardan sonra isə şair ilhamının məhsulu olan şeirlərinə təşəkkürünü belə bildirir:

*Sən nəsən mənim üçün?*
*Vətən, su, torpaq.*
*Nə qədər sən varsan, deməl varam mən.*
*Şeirim, ona görə hamıdan qabaq*
*Sənə minnətdaram, minnətdaram mən!*

Əliağa Kürçaylı Muğana, Milə, Kürə müraciət edərək silsilə şeirlər yazmışdı. Onun bütün şeirləri düşündürücüdür. Hətta məzmununa görə ithaf şeirlərinin özündə də belə orijinal təşbehlər, canlılıq, konkret bir fikrin ifadəsi var.

50 illik yubileyində qələm dostu Bəxtiyar Vahabzadə yazırdı: "Kürçaylı oxucuların ürəyinə yol tapmış xoşbəxt sənətkarlardandır. Bu yol çətin yoldur: mətanət, sədaqət, məhrumiyyətlərə dözüm yoludur, ömrünü poeziyaya həsr edənlərin yoludur".

Sözün böyüklüyünə, şərəfinə, əzəmətinə nail olmaq Əliağa Kürçaylı yaradıcılığının səciyyəvi xüsusiyyətləridir. Kitabdan-kitaba parlaq yaradıcılıq yolu keçən şairin həyat həqiqətlərinə sadiqliyi, estetik fikir və baxışlarının aydınlığı bütün şeirlərində büruzə verirdi. Əliağa Kürçaylı yaşıdları arasında ən istedadlı və tanınmış şairlərdən birinə çevrilmişdi.

Dramaturgiya ilə də məşğul olan müəllifin əsərləri teatrların diqqətini çəkirdi. "Nənəmin şahlıq quşu", "Ləpələr", "Boşanaq, evlənərik" musiqili librettoları tamaşaçılar tərəfindən maraqla qarşılanırdı. Bu əsərlər uzun illər Musiqili Komediya Teatrının repertuarından düşməyib. "Qoruqlar" pyesi də müəllifin uğurlu dram əsərlərindən biridir.

Əliağa Kürçaylı tərcümə ilə də məşğul olan qələm sahiblərindən biri olub. Bu sahədə onun xidmətləri çox böyükdür. Əliağa Kürçaylı kimləri tərcümə etməyib: A.Dante (İtaliya), Yesenin, Nekrasov, Mayakovski, Lermontov, Simonov, Tixonov, Marşak, Şipaçov (Rusiya), D.Qulia, K.Kaladze (Gürcüstan), M.Şeyxzadə (Özbəkistan), Y.Xappalayev (Dağıstan), F.Xalvaşi (Macarıstan), Nazim Hikmət (Türkiyə), M.Süleyman (Livan), K.Mayeresku (Rumıniya) və başqaları.

Əliağa Kürçaylı 25 poemanın müəllifidir. Yüzlərlə ədəbi tənqidi, elmi-publisistik məqaləsi var. Əliağa Kürçaylı yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatının ən parlaq güzgüsüdür. Ədəbiyyatşünaslar haqlı olaraq yazırlar ki, Əliağa Kürçaylının yaradıcılığı olmadan XX əsr Azərbaycan ədəbiyyatını tam və bütöv halda tədqiq etmək çətin olardı.

Ağır xəstəliyə düçar olmuş Əliağa Kürçaylı cəmi 52 il ömür sürmüşdü. Fevralda dünyaya gəlmişdi, elə həmin ayda da gözlərini əbədi yumdu. Bu gedişin ən ağır məqamlarından biri də şairin sevimli qızı Ülkərin atasının vaxtsız ölümünə dözməyərək özünü Xəzərin sularında qərq etməsi oldu. Övlad sevgisinin bu dəhşətli sonluğu bir əfsanəyə çevrildi.

Şairin son gedişi ilə bağlı Azərbaycan ədəbi mühitinin tanınmış nümayəndələri müxtəlif yazılar və şeirlər qələmə aldılar. O dövrdə ən dərdli nəğmələrdən birini də Məmməd Araz dilə gətirdi. Nəğməsində Kür harayı, nəfəsində Muğan düzü olan, söz yolunun əliqabarlı fəhləsi - Əliağa Kürçaylı şairin təbirincə desək:

*Dönüb getdi Kür üstünə,*
*Qondu qərib bülbül kimi*
*Boynu bükük gül üstünə.*

***Flora XƏLİLZADƏ,***
***"Azərbaycan"***

# 50 yaşlı "Göyərçin"...

**Balacaların sevə-sevə oxuduğu, böyüklərin də maraqla izlədiyi "Göyərçin" jurnalının ilk sayının işıq üzü görməsinin əlli ili tamam olur. Jurnalın baş redaktoru, filologiya elmləri doktoru Rafiq Yusifoğlu yubileylə bağlı dedi:**

- "Göyərçin" 1958-ci ildə pərvazlanıb, ölkəmizin bütün bölgələrinə yayılıb. Onun vaxtı ilə oxuyanlarının əksəriyyəti bu gün elmlər doktoru, ictimai-siyasi xadim, məhşur qələm sahibləridir. İlk redaktoru yazıçı Yusif Əzimzadə, rəssamı isə Yusif Hüseynov olmuşdur. Sonralar həmin vəzifələrdə Hüseyn Abbaszadə, Xalidə Hasilova, Tofiq Mahmud, təsviri sənət ustalarından Rafiq Mehdiyev, Arif Hüseynov və başqaları işləmişlər. Bu gün toplunun həmin illərdəki saylarını vərəqləyəndə, inanın, heyrətimi gizlədə bilmirəm. Xalqımızın ən dəyərli söz-qələm ustadları məmnuniyyətlə jurnalda çıxış edib, ürək sözlərini yazıb, azyazlı uşaqlara, yeniyetmələrə məsləhətlər, tövsiyələr veriblər. Xalq şairi Nigar Rəfibəyli təxminən 45 il əvvəl yazıb:




*Olsun "Göyərçin"in yaşı mübarək,*
*Onun hünərinə alqışlar deyək.*
*Daha da ucalsın, qalxsın, boy atsın...*
*Şeirlər, nəğmələr, sözlər yaratsın...*

Məndən əvvəl jurnalın baş redaktoru işləyən mərhum Tofiq Mahmudun bu fikri heç yadımdan çıxmır: "Mən "Göyərçin"i çox sevirəm, istəmirəm ki, onun müqəddəs yuvasına yad nəfəs toxunsun". Amma neyləməli, hər zamanın öz hökmü var. İllərlə yeniyetmələrin sevimlisi olan təsvirli, oxunaqlı toplunun da bir vaxtlar başı üstünü qara buludlar aldı. Qaldı "olum-olmayım", "çıxım-çıxmayım" sualların qarşısında. Belə çətin ərəfədə ulu öndər Heydər Əliyev hakimiyyətə gəldi və milli-mənəvi dəyərlərimizi, nağıl-dastanlarımızı, təbiətimizi təbliğ edən, balalarımızı xoşbəxt gələcəyə səsləyən "Göyərçin"ə qayğı göstərdi. Fəxr edirik ki, "Əlifba"dan sonra uşaqların ikinci dərsliyi hesab olunan "Göyərçin" yenidən nəşrə başladı.

Rafiq müəllimin sevincinə biz də qoşuluruq. Ötən əsrin 60-cı illərində "Göyərçin" ən azı 50-60 min tirajla çap olunardı. Bütün əyalətlərimizə yayımlanardı.

*50 yaşın mübarək, "Göyərçin"! Həyata qanadlandığın gündən sevilmisən, maraqla oxunursan. İnanırıq ki, bundan sonra da belə olacaqsan! Tərəqqində xidməti olanlar isə daim ehtiramla yad edilirlər. Çünki sən hər ailənin, uşağın, ziyalının sevimli dərgisisən.*

***M.MEHDİYEV,***
***"Azərbaycan"***